Koronavirus infeksiyasına qarşı əksepidemik tədbirlər

Koronaviruslar 40 növə yaxın RNT-tərkibli viruslardan ibarət Coronaviridae fəsiləsinə aiddir. Onlar dörd əsas növdə təsnif edilir: Alfa-, Betta, Qamma- və Delta Coronaviruslar. Bunlara insan, yarasa, donuz, pişik, köpək, gəmiricilər və ev quşlarında (ev və vəhşi heyvanlarda) rast gəlmək mümkündür.aiddir.

Ağır kəskin respirator sindrom (SARS) törədicisi
Yaxın şərq respirator sindrom (MERS) törədicisi
COVİD-19 infeksiyası törədicisi





Naməlum etiologiyalı pnevmoniya hadisələri 31 dekabr 2019-cu ildə Çinin Hubei əyalətinin Wuhan şəhərində baş vermişdir. Wuhanın cənubundakı Wuhan Güney Çin Dəniz məhsulları şəhər bazarının (müxtəlif heyvan növlərini satan topdansatış balıq və heyvandarlıq bazarı) işçilərinin əksəriyyətində rast gəlindiyi bildirilir.

Son rəsmi məlumatlara görə (ÜST) dünyada 155.813 xəstəlik hadisəsi, 5.814 olüm qeyd olunmuş, 74.438 nəfər sağalmışdır

Müxtəlif ölkələrdə bu xəstəlikdən letallıq 3-5% təşkil edir.

Buna baxmayaraq bu xəstəlik zamanı hadisənin təyini ciddi səviyyədə aparılmalıdır.

İnfeksiyanın əsas göstəriciləri tənəffüs simptomları, hərarət, öskürək və təngnəfəslikdir. Daha ciddi xəstəlik hallarında pnevmoniya, ağır kəskin tənəffüs yolu infeksiyası, böyrək çatışmazlığı, ürək-ciyər çatışmazlığı və hətta ölüm baş verə bilər. Ancaq mövcud məlumatlar əsasında xəstəliyin şiddəti haqqında hələ ki, fikir söyləmək olmur.

Hadisənin təyini

Şübhəli hadisə:

Hərarət və öskürək varsa, aşağıdakı sualları verin: Hərarət və öskürək başlamazdan əvvəlki 14 gün ərzində:

1.Çin, İtaliya, İran və ya Cənubi Koreyaya və digər COVİD-19 infeksiyası qeyd edilən ölkələrə səfər etmisinizmi?

2. Ağır kəskin respirator infeksiyalı xəstələri müalicə edən bir tibb işçisisinizmi?

3. COVID-19 infeksiyası təsdiqlənmiş və ya ehtimal olunan bir hadisə ilə təmasda olmusunuzmu?

Hadisənin təyini

Kəskin respirator infeksiyası olan xəstə (yüksək hərarət və respirator xəstəliyin ən azı bir simptomu (o çümlədən, öskürək, tənəffüsün çətinləşməsi) VƏ klinik mənzərəni tam izah edən digər səbəblərin olmaması, eyni zamanda anamnezdə VƏ xəstəliyin simptomları başlayana qədərki 14 gün ərzində xəstəliyin yerli yoluxma hallarının qeyd olunduğu ölkə/ərazilərdə (ÜST-ün gündəlik hesabatına görə) səfərdə olmaq və ya yaşamaq,

Hər hansı bir kəskin respirator xəstəliyi olan VƏ COVID-19 infeksiyası təsdiq olunmuş və ya ehtimal olunan bir şəxslə təmasda olması

Ağır kəskin respirator infeksiyası olan xəstə (yüksək hərarət və respirator xəstəliyin ən azı bir simptomu (o çümlədən, öskürək, tənəffüsün çətinləşməsi) VƏ hospitalizasiyaya ehtiyacın olması VƏ klinik mənzərəni tam izah edən digər səbəblərin olmaması,

Sıx təmas aşağıdakı kimi müəyyən edilir:
- tibbi yardımın göstərilməsində, o cümlədən COVİD-19 olan xəstələrə birbaşa qayğı göstərildikdə, COVİD-19 yoluxmuş tibb işçiləri ilə çalışdıqda, xəstələri ziyarət etdikdə və ya COVİD-19 yoluxan xəstəyə yaxın olmaq;
- COVİD-19 yoluxmuş xəstənin yaxınlığında birgə iş aparmaq və ya onunla eyni sinifdə qalmaq;
- hər hansı bir nəqliyyat növündə COVİD-19 yoluxmuş bir xəstə ilə birgə səyahət;
- COVİD-19 yoluxmuş bir xəstə ilə eyni evdə yaşamaq.

Burada müzakirə olunan hallardada epidemioloji əlaqə xəstəliyin başlanmasından 14 gün əvvəl və ya sonra baş verə bilər.

Hadisənin təyini

Ehtimal olunan hadisə

COVID-19 üçün test nəticəsinin qeyri-müəyyən olduğu şübhəli hadisə.

COVİD-19 infeksiyası təsdiq olunmuş xəstələrlə epidemioloji əlaqə

Hadisənin təyini

Təsdiq olunmuş hadisə

Kliniki təzahürlərin olub-olmamasından asılı olmayaraq laboratoriya müayinəsi ilə COVID-19 infeksiyasının olması təsdiq olunmuş şəxs.

Təmasda olanların izlənməsinə dair tövsiyələr

Təmasda olanların təyini:

Təmasda olanlar –aşağıdakı fəaliyyətlərdən hər hansı birində iştirak edən şəxslərdir:

-Fərdi qorunma vasitələri olmadan COVID-19 ilə xəstələrə bilavasitə yardım etmək;

-COVID-19 virusuna yoluxmuş xəstə ilə qapalı məkanda qalmaq (o cümlədən, iş yeri, tədris otağı, ev, kütləvi toplantı);

-COVID-19 virusuna yoluxmuş bir xəstə ilə, xəstədə simptomlar başlandıqdan sonrakı 14 gün ərzində istənilən eyni nəqliyyat vasitəsində ən azı 1 metr məsafədə yol getmək.

Təmasda olan şəxslərin müşahidəsi, “Təmasda olan şəxslərin müşahidə alqoritmi”nə uyğun aparılmalıdır

TƏMASDA OLAN ŞƏXSLƏRİN MÜŞAHİDƏ ALQORİTMİ

1.Təmasda olan bütün şəxslər ərazi üzrə tibb müəssisəsi və GEM tərəfindən aşkar olunur

2.“Təmasda olan şəxslərə dair məlumat forması” hər bir təmasda olan şəxs üçün ayrıca doldurulur, TƏBİB-in ddcp@tabib.gov.az elektron ünvanına göndərilir

3.Aşkar olunan şəxslərin siyahısı tərtib olunur, son təmasdan sonrakı 14 gün ərzində ərazi üzrə tibb müəssisəsi və GEM tərəfindən telefon vasitəsilə nəzarətdə saxlanılır

Təyyarədə təmasda olan

COVID-19 diaqnozu təsdiqlənmiş və ya şübhəli şəxs ilə təyyarədə birlikdə uçan sərnişinlərin iki ön, iki arxa və iki yan tərəfindəki oturacaqda olanlar iki həftə ərzində müşahidə edilməlidirlər

Təyyarə içərisində təsdiqlənmiş və ya şübhəli hallara uyğun xəstəyə xidmət göstərən uçuş heyəti üzvünün simptomları təqib edilir. Əgər şübhəli halın analiz nəticəsi pozitiv çıxarsa simptomların inkişafından birbaşa asılı olmayaraq, təmasdan sonrakı 14 gün ərzində uçuşa çıxmasına icazə verilmir. Həmçinin, simptomlar analiz nəticəsindən əvvəl meydana çıxarsa təmasdan sonrakı 14 gün ərzində uçuşa icazə verilmir. Analiz nəticəsi neqativ olduğu halda uçuşa icazə verilir.

Təmasda olan şəxslərin müşahidəsi, “Təmasda olan şəxslərin müşahidə alqoritmi”nə uyğun aparılmalıdır.

Təmasda olan şəxslərin maarifləndirilməsi

Təmasda olan şəxşlərin müşahidəsini aparan sahə həkimi işin keyfiyyətli aparılması məqsədilə müşahidə etdiyi şəxslərlə COVİD-19 xəstəliyi barədə ətraflı söhbət apararaq bu haqda lazımı biliklərlə təmasda olanları məlumatlandırıb, onlardan xəstəliyin ilkin əlamətlərinin (yüksək hərarət, quru öskürək, tənginəfəslik) üzə çıxdığı hallarda dərhal sahə həkiminə bu barədə bildirmələrini tələb edir

Fərdi mühafizə vasitələri

Fərdi Mühafizə Geyimləri:
FMG yoluxucu törədicidən ibarət ola bilən qan, orqan mayeləri və ya digər potensial cəhətdən yoluxucu material ilə təmasın qarşısını alır.

İşçi və yoluxucu material arasında sədd yaradır.

Fərdi mühafizə vasitələrinin tipləri

1 tip	**Bədən səthinin mühafizəsi**
2 tip	**Bədən səthinin mühafizəsi,əllərin dəri örtüyünün mühavizəsi,mühafizəedici ayaqqabılar**
3 tip	**Bədən səthinin mühafizəsi,əllərin və üzün dəri örtüyünün mühafizəsi,tənəfüss orqanlarının mühafizəsi,mühafizəedici ayaqqabılar**
4 tip	**Bədən səthinin mühafizəsi,əllərin və üzün dəri örtüyünün mühafizəsi, tənəfüss orqanlarının və gözlərin mühafizəsi, mühafizəedici ayaqabılar**

FMG seçimi

infelsiya törədicisinin patogen qrupundan və növündən
keçirilən tədbirlərin xarakterindən: laboratoriyada görülən işlərin
növündən asılı olaraq ;
xəstələrin evakuasiyası,
infeksion hospitalda iş, təcridxanada görülən İşlər,
xəstəlik ocaqlarında əhaliyə tibbi nəzarət işi,
insanların, heyvanların meyitlərinin yarılması və dəfn üçün hazırlıq,
cari və yekun dezinfeksiya və sair.

Gözün və üzün mühafizəsi

Yan tərəfləri olan qoruyucu eynəklər və ya sadə qoruyucu eynəklər
Üzqoruyucu maskalar və ya sıçrantıya qarşı qoruyucu vasitə
Göz və üzün qorunmasına fikir verilməli fəaliyyətlər:
Vorteks
Sentrifuqa
Pipetka

Əlcəklər

Cırılmış, natəmiz və ya zədələnmiş əlcəkləri dərhal dəyişin.
Əlcəkləri yenidən istifadə etməyin.
Laboratoriya və ya müayinə otağından kənarda əlcəklərdən istifadə etməyin.
Əlcəkləri çıxardıqdan sonra əllərinizi yuyun.

Əlcəklər nəyi çirkləndirir

Telefon
Masalar
Kompüterlər
Qapı və çəkməcələrin dəstəkləri
Qələmlər, karandaşlar
Lift düymələri





Bir əlcəyin kənar hissəsini digər əlcəkli əliniz ilə tutun.
İçini çölünə çevirərək əlcəyi ehtiyatla əlinizdən çıxardın.

Çirklənmə daxildə qalır.
Əlcəyi yumurlayın və digər əlcəkli əlinizin içində saxlayın.
Əlcəksiz barmağınızı digər əlcəyin içinə salın. .....
Əlcəyin xarici səthinə toxunmayın.
İçini yenidən çölünə çevirərək əlcəyi ehtiyatla əlinizdən çıxarın....
Bütün çirklənmə daxildə qalır.
Müvafiq qaydada əlcəyi tullayın.

Ayaqların və dərinin qorunması

Burnu açıq ayaqqabılar, səndəllər, dəlikli ayaqqabılar və digər açıq ayaqqabı növləri qadağandır.

Şort və ya dəri səthini örtməyən digər geyimlər münasib deyil.

Qoruyucu geyim

Qoruyucu geyim laboratoriya və ya klinika ərazisində çıxarılmalı və saxlanılmalıdır.

Yenidən istifadə edilən mühafizə geyimi yerindəcə avtoklavdan keçirilməlidir (risk qiymətləndirməsindən asılı olaraq çamaşırxanada təmizlənilə bilər).

Qoruyucu geyim laboratoriya və ya kliniki müəssisədən kənarda geyinilməməlidir.

Qoruyucu geyim heyət tərəfindən evə aparılmamalıdır.

Tyvek Classic qoruyucu kombinezonun geyinmə qaydası:

Vizual olaraq kombinezonun və tibbi əlcəklərin bütövlüyünü yoxlamaq
Respiratoru paketdən çixartmaq
 Qoruyucu kombinezonu açmaq
Kombinezonun şalvarını geyinmək
Kombinezonun qollarını geyinmək (kombinezonun cırılmasının qarşısını almaq üçün hər iki qolun eyni vaxtda taxılması qadağandır).
Kombinezonu qabaq hissəsini bağlamaq.
Xüsusi ayaqqabıların üstündən birdəfəlik bahil geymək
Respiratoru geymək
Başlığı geyinmək.
Birinci cüt əlcəkləri geymək
İkinci cüt əlcəklər geymək. əlcəklərin yuxarı hissəsinin kombinezonun üstündə yerləşməsini təmin etmək.

FMG aşağıdakı qaydada geyinilməlidir (bütün müəssisələrdə bütün geyim növləri tələb olunmur; tələblər risk qiymətləndirməsinə əsasən müəyyənləşdirilir):

1.Laboratoriya xalatı (qoruyucu geyim)
2.Tənəffüs yollarını qoruyan vasitə
3.Gözləri qoruyan vasitə
4. Bir istifadəlik əlcəklər

FMG aşağıda göstərilən qaydada çıxarılmalıdır:

Bir dəfə istifadə edilən əlcəklər
Gözləri qoruyan vasitə
Tənəffüs yollarını qoruyan vasitə
Laboratoriya xalatı (qoruyucu geyim)

Bütün FMG növlərini çıxardıqdan sonra ərazini tərk etməmişdən əvvəl əllər yuyulmalıdır.

Laborator diaqnostikaya dair tövsiyələr

Hər bir şübhəli hadisə əldə olan molekulyar testlər ilə laborator üsulla yoxlanılmalıdır. Lakin xəstəliyin ötürülmə intensivliyindən, hadisələrin sayından və laboratoriyanın iş qüvvəsindən asılı olaraq şübhəli hadisələrin yalnız seçilmiş nümunələrinin yoxlanılmasına yol verilə bilər (əlavə edilən alqoritmdən istifədə edin).

Resurslar imkan verərsə, virusun dövr etmə miqyasını daha yaxşı qiymətləndirmək üçün laborator müayinələr daha geniş şəkildə aparıla bilər (məsələn, kəşfiyyat xarakterli epidemioloji nəzarəti təşkil etməklə).

Hadisə xəstəliyin təyininə tam uyğun gəlmədiyi halda belə, həkimlər klinik mülahizələrə əsasən laborator müayinə təyin edə bilərlər, məsələn, qrup şəklində (klaster) tibb işçiləri arasında kəskin respirator xəstəliklər və ya ailə, iş yeri və ya ictimai yerlərdə AKRİ və ya pnevmoniya qeydə alınarsa.

Nümunənin növü	nümunələrin götürülməsi üçün materiallar	Laboratoriyaya nəql edilməsi	Analizə qədər saxlama şəraitləri	Qeyd
Əsnəkdən və udlaqdan yaxmalar	Dakron və ya poliesterdən flok- tamponlu zond*	4°C	≤5 gün: 4°C >5 gün: –70°C	Virus yükünü(titr) artırmaq üçün gənzikdən və udlaqdan yaxmalar eyni sınaq şüşəsinə yerləşdirilməlidir.
Bronxoalveolyar yuyuntu (bronxoalveolyar lavaj yolu ilə alınmış)	steril konteyner*	4°C	≤48 saat: 4°C >48 saat: –70°C	Törədicinin konsentrasiyasının bir az azalması ola bilər, amma yenə də analiz üçün yararlı nümunədir
(Endo)traxeal aspirat, gənzikdən aspirat və ya burun boşluğundan yuyuntu	steril konteyner*	4°C	≤48 saat: 4°C >48 saat: –70°C	

Nümunənin növü	nümunələrin götürülməsi üçün materiallar	Laboratoriyaya nəql edilməsi	Analizə qədər saxlama şəraitləri	Qeyd
Bəlğəm	**steril konteyner**	**4°C**	**≤48 saat: 4°C >48 saat: –70°C**	**Materialın aşağı tənəffüs yollarından götürüldüyünə əmin olmaq lazımdır**
Ağciyər daxil olmaqla biopsiya və ya autopsiya (yarılma) yolu ilə götürülən toxuma nümunəsi.	steril konteyner, fizioloji məhlulla	4°C	≤24 saat: 4°C >24 saat: –70°C	
Zərdab(2 nümunə xəstəliyin kəskin dövründə və sağalma dövründə, mümkün qədər, kəskin dövrdən 2-4 həftə sonra)	Zərdabın(serumun) ayrılması üçün separatorla əşya şüşəsi (Böyüklər: 3-5 ml qarışıqsız qan götürmək)	4°C	≤5 gün: 4°C >5 gün: –70 °C	Qoşa nümunələr götürülməlidir: • xəstəliyin kəskin dövründə - birinci həftədə • sağalma dövründə - 2-3 həftə sonra
Qan	Sınaq şüşəsi	4°C	≤5 gün: 4°C >5 gün: –7 °C	Antigen materialının aşkarlanması üçün, xüsusilə xəstəliyin ilk həftəsində

Növ	Təsir	Digər materiallara Təsiri	Ehtiyat tədbirləri	İstifadəsi	Nümunələr
Hipoxlorid	• Vegetativ bakteriya və viruslara qarşı yüksək effektivliyə malikdir • Sporlara qarşı effektivliyi məhduddur • Mikobakteriya növlərinə qarşı çox effektiv deyil	• Yuyucu vasitələrlə birlikdə istifadə edilə bilər • Metalları aşındırır • Rezini zədələyə bilər	• Üzvi maddələr tərəfindən qeyri-fəallaşdırılır • İş məhlulları hər gün dəyişdirilməlidir • Açılmış ehtiyat şüşələri hər ay tullanmalıdır	• Laboratoriyada istifadə edilən ümumi dezinfeksiya edici maddədir	• Maye (məs. Natrium hipoxlorit) və ya bərk (məs, kalsium hipoxlorit) • Məişət ağardıcısı= 5.25%–6.15%-lik natirum hipoxloritin su vasitəsilə yaradılan məhlulları
Spirt	• Bir çox bakteriyalara qarşı effektivdir • Spor və ya göbələklərə təsiri yoxdur • Virusoloji qeyri-fəallaşdırma/öldürmə fəaliyyəti fərqlidir • Nuklein turşularına qarşı istifadə edilmir	• Aşındırıcı deyil • Rezin və plastması zədələyə bilər	• Su ilə qarışdırılmadan istifadə edilməməlidir • Alışqandır • Üzvi materiallara daxil olma qabiliyyəti pisdir	• Səthləri yaxşı dezinfeksiya edir	• 70% etanol • 70% izopropil spirti
Peroksigen-əsaslı (məs. Buxarlaşdırılmış Hidrogen Peroksid)	• Bakteriya, göbələk və viruslara qarşı effektivdir • Sporlar və Mikobakteriya növlərinə qarşı fəallığı müxtəlifdir	• Bəzi aşınmaya səbəb olur, lakin hipoxloritlər qədər deyil	• Fəallaşdırıldıqdan sonra istifadə müddəti məhduddur	• Laboratoriyada istifadə edilən ümumi dezinfeksiya edici maddədir • BHP laboratoriyanın (və otaqların) buxarla dezinfeksiya edilməsi	• Virkon

Nümunələrin götürülməsi və nəqli zamanı texniki təhlükəsizlik

Laborator tədqiqatı üçün alınmış bütün nümunələr potensial infeksiyalı hesab edilməlidir vəklinik nümunələri toplayan və nəql edən tibb işçiləri, xəstəliyin səbəb amillərinin təsir imkanlarını minimuma endirmək üçün, infeksiyaların profilaktikası və infeksiyaya nəzarəti üzrə Rəhbərliyin(təlimatın) tələblərinə, həmçinin təhlükəli yüklərin (infeksiyalı maddələrin) nəqliyyatla daşınması üçün milli və beynəlxalq qaydalara ciddi riayət etməlidirlər. İnfeksiyanın profilaktikasının reallaşdırılması və onunla mübarizə üçün ehtiyat tədbirləri məqsədilə, yeni 2019-nCoV-un profilaktikası və infeksion nəzarəti üzrə Rəhbərlik işlənib hazırlanmışdır.

Orofaringeal yaxmanın alınması





Nazofaringeal yaxmanın alınması

Qeyd edilməli məlumatlar:

- Pasiyent haqqında məlumatlar – adı, soyadı, doğulduğu tarix, cinsi, yaşadığı ünvan, fərdi identifikasiya nömrəsi, digər faydalı məlumatlar (pasiyentin kodu, epidemioloji nömrəsi, müalicə müəssisəsinin adı, müalicə müəssisəsinin ünvanı, palata nömrəsi, həkimin adı və əlaqə məlumatları, laboratoriya nəticəsini alan şəxsin adı və ünvanı),
- Nümunənin götürülmə tarixi və vaxtı;
- Nümunənin götürüldüyü anatomik lokallaşma yeri və sahə
- Tələb olunan analizlər
- Pasiyentin kliniki simptomları və müvafiq anamnezi (vaksinasiya və aldığı mikrob əleyhinə müalicə də daxil olmaqla, epidemioloji məlumatlar, risk amilləri).

<u>Üçqat</u> qablaşdırma əsasdır!

1. Birinci konteyner
   •Sızdırmayan plastik qab əsasdır, ancaq, şüşədən də istifadə oluna bilər.
   •Nümunə hermetik, sızdırmayan plastik torbaya, sənədlər isə ayrıca torbaya və ya sızdırmayan torbaya yerləşdirilir (hər ikisi ikinci konteynerin içərisinə qoyulur).



Laboratoriyada nümunələrin əldə daşınması

- Bütün nümunələr daşınma zamanı birincili və ikincili konteynerə qoyulmalıdır.



Üçüncü Konteyner

- Adətən penoplast, karton, taxtadan ibarət olur
- Daşıma üçün davamlı olmalıdır
- Hopdurucu material ilə yanaşı nümunələri soyuq saxlamaq üçün ikinci və üçüncü konteynerlərin arasında buz torbaları və ya quru buzdan istifadə edilə bilər



Laboratoriyadan kənara daşınmaq üçün qablaşdırmaya dair minimal tələblər

- Sınmayan birincili konteyner
- Sızmayadavamlı birincili və ya ikincili konteynerlər tələb olunur.
- Birincili konteyneri şaquli vəziyyətdə saxlamaq üçün ştativ və ya qablaşdırma
- Bütün konteynerləri aşağıdakı məlumatları qeyd etməklə etiketləyin:
  - İçindəkilər
  - Sahibi
  - Biotəhlükəyə dair müvafiq məlumat

Laboratoriyadan kənara daşınma

Yivli qapaqlı, sızdırmayan plastik konteynerlər

Sınmayan və sızdırmayan qablaşdırma içərisində ştativə yerləşdirilmiş nümunələr

Etiket:

İçindəkilər
Sahibi
Biotəhlükəyə dair məlumat

Göndəriləcək konteynerin qablaşdırılması:
Konteyner sızma, fiziki zərbə və təzyiq dəyişikliklərinə qarşı davamlı olmalıdır;
Birincili konteynerdə sızma olarsa, ikincili konteyner xaricə sızmanın qarşısını alır;
Sızma olduqda, maddələrin hopdurulması üçün birincili və ikincili konteynerlər arasında adsorbent material yerləşdirilməlidir;
Sonra ikincili konteyner kartondan hazırlanmış xarici göndəriş konteynerinə yerləşdirilir.

Aerozol yaradılması ilə müşayiət oluna bilən prosedurları (yəni nəfəs yollarından materialın aspirasiyası və ya açıq çəkilməsi, intubasiya, ürək-ağciyər reanimasiyası, bronxoskopiya) yerinə yetirən tibb işçiləri əlavə mühafizə vasitələrindən (daha ətraflı məlumat üçün yuxarıda göstərilən təfsilatlı rəhbərliyə baxın) istifadə etməlidirlər:

- -Respiratorlar (NIOSH-təsnifatı üzrə N95 tipli, EU FFP2 və ya onun ekvivalenti, və ya daha yüksək qoruma səviyyəsi). Bir dəfə istifadə üçün nəzərdə tutulmuş aerozol əleyhinə respiratoru geyinərkən, həmişə onun germetikliyini və üzə yatmasını yoxlamaq lazımdır. Xatırlamaq lazımdır ki, üzdə tük örtüyünün olması (məsələn saqqal) respiratorun onu daşıyanın üzünə lazımi qaydada yatmasına maneə yarada bilər. Bir çox ölkələrdə adi respiratorların əvəzinə enerji dəsti ilə işlədilən hava üfürücü respiratordan (PAPR) istifadə edilir.
- -gözlərin mühafizəsi (yəni eynək və ya üz sipəri).
- -Uzun qollu, təmiz xalatlar və əlcəklər. Əgər xalat mayelər üçün keçiricidirsə, mayelərin yaradılması və onların xalatın üzərinə düşməsi ilə müşayiət oluna bilən prosedurların yerinə yetirilməsi zamanı, su keçirməyən önlüklərdən istifadə etmək lazımdır.

Nümunələrin laboratoriyaya daşınmasının xüsusiyyətləri

• nümunələri nəql edən işçi personalı onlarla təhlükəsiz davranmaq praktikasına malik olmalı, həmçinin tökülən maddələrin dekontaminasiya prosedurları üzrə təlim keçməlidir;

• müvafiq hallarda təhlükəli yüklərin (infeksiyalı maddələrin) nəql edilməsi üçün tətbiq edilən milli və ya beynəlxalq qaydalara riayət etmək lazımdır (14);

• Mümkün olan hər bir halda bütün nümunələri əllə çatdırmaq lazımdır. Nümunələrin daşınması üçün pnevmatik çatdırılma sistemlərindən istifadə etmək olmaz;

• nümunələrə əlavə olunan laborator tədqiqatına göndərmə vərəqəsində pasiyentin adını və doğulduğu tarixi aydın göstərmək lazımdır. Nümunələrin daşınması barədə laboratoriyanı mümkün qədər tez məlumatlandırmaq lazımdır.

Yığılıb bağlanması və digər laboratoriyaya çatdırılması
Nümunələrin milli sərhədlər daxilində nəql edilməsi, tətbiq edilən milli qaydalara əməl olunmaqla həyata keçirilməlidir. Beynəlxalq daşınma sahəsində qaydalar:İstifadə edilən nəqliyyat növündən asılı olaraq, yeni koronavirus nümunələrinin daşınması BMT-ninModel (Örnək) Qaydalarına və bu məqsəd üçün məqbul olan digərtətbiq olunan qaydalarina əməl edilməklə həyata keçirilməlidir.Daha ətraflı məlumatı ÜST-nın İnfeksiyalı materialların daşınması qaydaları üzrə (2019-2020) Rəhbərliyindən (1 yanvar 2019-cu ildən tətbiq olunur) almaq olar. İnfeksiyalı materialların daşınması haqqında qısa məlumatları, həmçinin ÜST-nin Epidemiyalarla mübarizə üzrə Tədbirlər Kompleksi 4 stolüstü kitabından əldə etmək olar.

SUALLAR?